# Əta Tərzibaşının elmi yaradıcılığında XVI əsr Bağdad ədəbi mühiti

**Orxan İsayev**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: orxan.qeriman@mail.ru

**Annotasiya.** XVI əsr Bağdad ədəbi mühiti tanınmış alim Əta Tərzibaşının elmi fəaliyyətində xüsusi yer tutur. Füzuli, Ruhi Bağdadi, Əhdi Bağdadi, Fəzli və bir çox XVI əsr Bağdad ədəbi mühitində yetişən şairlərin həyat və yaradıcılığı Əta bəyin elmi məqalələrində, irihəcmli əsərlərində kifayət qədər geniş təhlil edilib. Alimin əsas əsərlərindən sayılan "Kərkük şairləri" kitabında da bu dövrdə yetişən şairlər haqqında ətraflı məlumatlar verilib. Əta Tərzibaşı XVI əsr Bağdad ədəbi mühitində yazıb-yaradan şairlərin yaradıcılığını daha çox Əhdi Bağdadinin "Gülşəni-şüəra" təzkirəsi əsasında tədqiq edib. Kərküklü alimin XVI əsr Bağdad şairləri haqqında apardığı araşdırmalar o dövrdə mövcud olan azərbaycandilli ədəbiyyatın öyrənilməsi baxımından da xüsusi əhəmiyyətə malikdir.
**Açar sözlər:** Ədəbiyyat, təzkirə, Əta Tərzibaşı, Bağdad ədəbi mühiti, klassik ədəbiyyat

**Məqalə tarixçəsi:** göndərilib – 03.02.2022; qəbul edilib – 12.02.2022

# Baghdad literary environment of 16th century in scientific creativity of Ata Tarzibashi

**Orkhan Isayev**
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: orxan.qeriman@mail.ru

**Abstract.** Baghdad literaty environment of the 16th century occupies a special place in scientific activity of the well-known scholar Ata Tarzibashı. The life and work of the poets such as Fuzuli, Ruhi Bagdadı, Ahdi Bagdadi, Fazli and others who grew up in the literary environment of Bagdad in the 16th century were extensively analyzed in Ata Tarzibash's scientific articles and works. The book "Kirkuk poets", which is considered one of the main works of the scientist, also provides detailed information about the poets who grew up in this period. Ata Tarzibashi studied the works of poets who wrote and created in the literary envirament of Baghdad in the 16th century, mainly on the basis of Ahdi Baghdadi's work "Gulshani-shuara". The researches of the Kirkuk scholar about the poets of the 16th century in Baghdad are of special importance in terms of studying the Azerbaijani literature of that time.
**Keywords:** literature, memoirs, Ata Terzibashi, Literary environment of Baghdad, classical literature

**Article history:** received − 03.02.2022; accepted − 12.02.2022

## Giriş / *Introduction*

XVI əsr Bağdad ədəbi mühitini daha dərindən anlamaq üçün həmin dövrdə Bağdadın ictimai-siyasi və mədəni həyatına qısa da olsa nəzər salmaq vacibdir. Əsrin əvvəllərində Səfəvi-

lərin, daha sonra Osmanlıların hakimiyyəti altında olan Bağdadda vəziyyət heç də ürəkaçan deyildi. “XVI əsrin Bağdadında həyat dinc axınla axmırdı. O, Osmanlı və Səfəvilərin döyüşlərinin əsas meydanına çevrildi” [3, s.20]. “Osmanlılar şiələri, Səfəvilər isə sünniləri kafir elan etmişdilər. Bu siyasət, hər iki dövlətin hakim dairələrinə işğal edilmiş ərazilərdə yaşayan əhalini qarət etməyə “qanuni” əsas verirdi” [2, s.406]. İki böyük türk dövləti arasında davam edən aramsız müharibələr, heç şübhəsiz, sadə xalqın həyat tərzinə də təsirsiz ötüşmürdü. Osmanlıların hakimiyyəti zamanı Bağdad və ətraf ərazilərdə yaşayan əhalinin güzəranı daha da ağırlaşmışdı.

### Əsas hissə / *Main Part*

Tədqiqatçıların bir çoxu XVI əsri Osmanlı tarixinin “Qızıl dövrü” kimi xarakterizə edir. Lakin Bağdadda hökm sürən qeyri-stabil siyasi vəziyyət və ağır iqtisadi şərait bu fikri şübhə altına alır. Professor Qəzənfər Paşayev XVI əsri Osmanlı hakimiyyətinin yox, Bağdad ədəbi mühitində yaranmış ədəbiyyatın qızıl dövrü adlandırır. Ağır sosial və siyasi şəraitdə Məhəmməd Füzuli, Hüşyar Dədə, Didar Dədə, Ruhi Bağdadi, Kəlayi Bağdadi kimi şairlərin yetişməsi, Əhdi Bağdadinin həmin dövr ədəbiyyatına işıq salan “Gülşəni-şüəra” adlı təzkirəsinin yaranması hörmətli professorun fikirlərinin həqiqət olduğunu təsdiq edir. “XVI əsrin Bağdadında kifayət qədər güclü ədəbi məktəb mövcud idi. Başqa seyləri kənara qoyaq, bundan özözlüyündə Füzulinin poetik irsi xəbər verir” [3, s.23]. Bu dövrdə Bağdadda yaranmış ədəbi mühitdə yetişən şairlərin yaradıcılığı sonrakı dövrlərdə bütün Şərq ədəbiyyatına ciddi şəkildə təsir göstərirdi. Füzuli özündən sonrakı şairlər üçün mayak rolunu oynadı. Təsadüfi deyil ki, akademik Həmid Araslı “Böyük Azərbaycan şairi Füzuli” adlı monoqrafiyasında yazırdı: “Füzuli bütün Bağdad şairlərinin deyil, bəlkə özündən əvvəl yaşamış olan Azərbaycan şairlərinin hamısının ədəbi irsini mənimsəyib, Azərbaycan ədəbiyyatı tarixində qəzəl janrını elə bir səviyyəyə yüksəltdi ki, ondan sonra gələn şairlər əsrlərcə onu təqlid etmək, mərhum C.Cabbarlının dediyi kimi “onu ötmək deyil, ona çatmaq uğrunda” mübarizə aparır. Lakin qəzəl sahəsində Füzuli səviyyəsində duran sənətkar yetişə bilmədi” [1, s.82].

XVI əsrdə Bağdadda və Osmanlı dövlətinin digər şəhərlərində yaşamış şairlər haqda əsas məlumatlar Əhdi Bağdadinin “Gülşəni-şüəra” adlı təzkirəsində yer almışdır. Əhdi Bağdadi “Şəmsi təxəllüsü ilə şeir söyləyən Şəmsəddin adında bir şəxsin oğlu olub” [15, s.35] və özü də müxtəlif mövzularda şeirlər yazırdı. Lakin Əhdi Bağdadini həm öz zamanında, həm də ondan sonrakı dövrlərdə məşhur edən yazdığı şeirlərdən daha çox, təzkirəsi oldu. Müəllif bu təzkirədə 381 şair haqqında bioqrafik məlumatlarla yanaşı, yaradıcılıqlarından da nümunələr təqdim etmişdir. “Əhdi əsərini yazarkən bəzi şairlərlə birbaşa görüşmüş, bəziləri ilə məktublaşmışdır. Belə bir imkan tapmadığı şairlərin bioqrafiyasını yazarkən hissləri ilə hərəkət etmişdir” [16, s.4]. “Gülşəni-şüəra”da XVI əsr Bağdad ədəbi mühitində yetişən Məhəmməd Füzuli, Ruhi Bağdadi, Şəmsi Bağdadi, Hüsni Bağdadi, Muradi, Kəlayi Bağdadi, Cahan Dədə, Füzulinin oğlu Fəzli və digər azərbaycanlı şairlər haqqında məlumatlar öz əksini tapmışdır. Əhdi Bağdadi öz təzkirəsində yuxarıda adını çəkdiyimiz şairlərin bəziləri haqqında müfəssəl, bəziləri haqqında isə müxtəsər məlumatlar verməklə kifayətlənmişdir. Bu şairlərin bir çoxunun yaradıcılığı hələ də kifayət qədər tədqiq olunmamışdır. Professor Azadə Musabəyli “Bağdadda yaranan Azərbaycan ədəbiyyatı və Ruhi Bağdadi divanı” adlı əsərində yazır: “... Bağdad ədəbi mühitində azərbaycanlılar, onların mövqeyi indiyədək əhatəli açıqlanmamışdır. Xüsusilə, XVI əsrdə Bağdadda yaranan anadilli ədəbiyyatımız ayrıca diqqətə alınmalıdır” [6, s.14]. Tarixi qaynaqlar və sonralar aparılmış tədqiqatlar göstərir ki, XVI əsr Bağdad ədəbi mühitinin formalaşmasında azərbaycanlı şairlər və azərbaycandilli ədəbiyyat əsas rol oynamışdır. “Bu dövrdə Azərbaycan ədəbiyyatının bir hissəsinin Bağdadda formalaşması heç də təsadüfi hadisə deyil və Azərbaycan ədəbi mühiti, sənətkarlığı XVI əsrdə Bağdadda mədəniy-

yətimizin bir nümunəsi kimi İslam dünyasına güclü təsir göstərmişdir" [7, s.19].

Bu günə qədər Bağdad ədəbi mühiti ilə bağlı araşdırma aparan istənilən tədqiqatçının müraciət etdiyi əsas mənbə məhz "Gülşəni-şüəra"dır. XVI əsr Bağdad ədəbi mühiti ilə məşğul olan təzkirəçilərdən biri də görkəmli İraq-Türkman alimi Əta Tərzibaşı olmuşdur. Ümumiyyətlə, Əta bəy uzun illər türkmanların həm şifahi, həm də yazılı ədəbiyyatının tədqiqinə böyük əmək sərf etmiş və türk dünyasında ədəbiyyatşünas alim kimi nüfuz qazanmışdır. Əta Tərzibaşı XVI əsrdə Bağdadda və türkmanların yaşadığı digər şəhərlərdə yaranan ədəbiyyatla bağlı kifayət qədər ciddi elmi tədqiqatların müəllifidir. Şübhəsizdir ki, onun ədəbiyyatşünaslıq fəaliyyətinin ön sıralarında Məhəmməd Füzuli ilə bağlı araşdırmaları gəlir. Həm ərəb ölkələri, həm də Türkiyənin bir çox dərgi və qəzetlərində Füzuli ilə bağlı dərc etdirdiyi məqalələr füzulişünaslar tərəfindən böyük maraqla qarşılanmışdır. Müxtəlif arxiv mənbələrilə işləmək bacarığı ona Füzulinin anadan olduğu yer, doğum tarixi, bir sıra şeirlərinin izahı ilə bağlı fikir yürütmək imkanı vermişdir. Məhəmməd Füzuli təkcə XVI əsr azərbaycandilli ədəbiyyatın deyil, bütünlükdə Şərq ədəbiyyatının əsas simalarından biridir. Bu səbəbdən də digər tədqiqatçılar kimi, Tərzibaşının da Füzuli irsinə tez-tez müraciət etməsi başadüşüləndir. Əta bəyin Füzuli ilə bağlı müxtəlif dərgilərdə işıq üzü görmüş yazıları kərküklü tədqiqatçı Nicat Kövsəroğlunun tərtibində İstanbulda "Füzuli haqqında yazılar" adı altında kitab şəklində nəşr olunmuşdur [9].

Əta Tərzibaşının Füzuli irsi ilə bağlı məqalələrini tədqiq edərkən müəllifin XVI əsr Bağdad ədəbi mühitinə münasibətinin də şahidi oluruq. Bütün bunlara rəğmən böyük alimin füzulişünaslıq fəaliyyətində ən diqqətçəkən məqam şairin doğum yeri ilə bağlı fikirləridir. 1953-cü ildə Beyrutda nəşr olunan "Əl-Ədib" dərgisində dərc etdirdiyi məqalədə Əta Tərzibaşı ilk dəfə olaraq Füzulinin Kərkükdə dolğulması fikrini irəli sürmüşdür. Maraqlıdır ki, Əta bəyə qədər də füzulişünaslar Məhəmməd Füzulinin doğulduğu yerlə bağlı ortaq fikirdə deyildilər. Bəziləri onun Bağdadda, bəziləri isə Hillədə və ya Kərbəlada dünyaya göz açdığını iddia edirdilər. Şairin "Hillədə doğulduğunu söyləyənlər professor Fuad Köprülü (İslam Ensikl., cild 4, s.687) olmaqla Süleyman Nazif ("Füzuli", 1925, s.16), Müallim Naci, Faik Rəşad, Ş.Sami, professor Geb, əskilərdən Xınalızadə Həsən Çələbi və başqalarıdır" [9, s.54]. Sonralar Əta Tərzibaşının Füzulinin Kərkükdə doğulması fikrinə tərəfdar çıxanlar da oldu. Bununla bağlı müəllif 1971-ci il oktyabr ayında "Türk kültürü" jurnalının IX sayında dərc etdirdiyi "Füzulinin doğum yeri haqqında yeni bilgilər" adlı məqaləsində yazır: "Türk Yurdu" dərgisində (s.251, dekabr 1955, İstanbul) dərc etdirdiyimiz xüsusi bir yazıyla, bəzi qaynaqların işığı altında xalq deyimlərinə az-çox aydınlıq gətirməyə çalışmışıq. Bu məqaləni eyni dərginin 1956-cı il yanvar tarixli nüsxəsini araşdıraraq irəli sürdüyümüz iddianı kökündən rədd edən professor Əbdülqədir Karahan, bir müddət "İslam Ensiklopediyası"nın ingilis dilində nəşri üçün yazdığı "Füzuli" maddəsinə [s.937] qaynaq göstərmədən Füzulinin Kərküklü olması ehtimalı üzərində dayanmışdır" [9, s.107-108].

Əta bəyin Füzuli ilə bağlı araşdırmaları təkcə dahi şairin doğulduğu yerin müəyyən olunması ilə bitmir. Alim Məhəmməd Füzulini bir neçə istiqamətdə araşdırmışdır ki, bu araşdırmaları da aşağıdakı kimi qruplaşdıra bilərik:

1. Füzulinin doğum yeri və tərcümeyi-halı ilə bağlı məqalələr;
2. "Mətlə-ül Etiqad" əsəri ilə bağlı məqalələr;
3. Füzuli əsərlərində işlənmiş gizli mənaların izahı ilə bağlı məqalələr;
4. Füzulinin müxtəlif qəzəllərinin təhlili.

Əta Tərzibaşının Füzuli yaradıcılığına müraciəti bunlarla yekunlaşmır. Kərküklü alim həm klassik, həm də müasir ədəbiyyatla bağlı yazdığı məqalələrdə tez-tez Füzuliyə istinad edir, ondan nümunələr verir, Füzulinin şeirlərini müqayisəli təhlillərə cəlb edir. Belə məqalələrindən nümunə olaraq "Divan ədəbiyyatında "Ağac at", "Ədəbiyyatda leffüneşir sənəti", "Klassik ədəbiyyatda "Gül ağız" və "İncə dodaq", "Klassik şeirdə Dövri-Qəmər terimi" və s. adlı yazılarını göstərə bilərik.

Əta bəyin XVI əsr türkman ədəbiyyatı ilə bağlı elmi tədqiqatları təkcə Məhəmməd Füzuli yaradıcılığı ilə məhdudlaşmır. Alim Əhdi Bağdadi sənətinə, əsasən də onun məşhur təzkirəsi-

nə yüksək qiymət verir. XVI əsr Bağdad ədəbi mühitini özündə əks etdirən "Gülşəni-şüəra" Əta Tərzibaşının da həmin dövr araşdırmalarının əsas qaynağıdır. Əta bəy bir çox elmi məqalələrində bu təzkirəyə istinad edir. İstər Füzuli, istərsə də digər XVI əsr azərbaycanlı şairlərin yaradıcılığı tədqiq edilərkən istinad olunan əsas mənbə məhz "Gülşəni-şüəra"dır. Alim "Qardaşlıq" dərgisinin 1971-ci ildə işıq üzü görən 6-7-ci sayında dərc etdirdiyi "İraq-Türkman ədəbiyyatına ümumi baxış" adlı məqaləsində yazır: "Füzulinin müasirlərindən sayılan Əhdi də dövrünün şair və ədibləri arasında ad çıxarmış simadır. Atası Şəmsi, qardaşları Rzayi və Muradi və qohumu Rindinin də şeirləri vardır. Əhdinin "Gülşəni-şüəra" adlı təzkirə kitabında bir çox iraqlı türkman şairlər olmaqla, Füzuli və onun oğlu Fəzlidən başqa Həqiqi, Fikri, Süleyman, Əkrəm Qayıtmaz, Mehmet Feyzi, Atəşi, Cövhəri, Hadimi, Zəheni, Kəlani, Nadiri, Vallahi, Ruhi kimi şairlər keçməkdədir" [14, s.128]. Əta bəyin "İraq-Türkman ədəbiyyatına ümumi bir baxış" adlı məqaləsi geniş şəkildə 1971-ci ildə "Türk Ensiklopediyası"nın 19-cu cildində nəşr olunub. Bu məqalədə yuxarıda adını çəkdiyimiz şairlərdən başqa, digər şairlər haqqında da müəllif öz fikirlərini yazmışdır. Belə şairlərdən biri də Ruhi Bağdadidir. XVI əsr Bağdad ədəbi mühitində yetişən şairlər arasında Füzulidən sonra ikinci ən çox tədqiq olunan şair, fikrimizcə, Ruhidir. Gürcü alim Elizbar Cavelidzeyə görə, Əhdi Bağdadi Ruhi ilə şəxsən tanış idi. Lakin onun təzkirəsinin yazıldığı dövr Ruhi Bağdadinin gənclik çağlarına təsadüf etdiyi üçün şair haqqında yazılan məlumatlar tam olmayıb [4, s.56]. 1998-ci ildə Ankarada nəşr edilən "Təzkirələrə görə divan ədəbiyyatı isimlər sözlüyü"ndə "Ruhi" təxəllüsü ilə yazıb-yaradan bir neçə şairin adı qeyd olunur ki, onlardan da yalnız dördü XVI əsrdə yaşayıb:

1. Fazil Ruhi Müfti
2. Mustafa Ruhi
3. Ömər Ruhi
4. Ruhi Bağdadi [7, s.58]

Bunlardan hansının "Gülşəni-şüəra"da adıçəkilən Ruhi olduğu sual doğurur. Ruhi Bağdadi ilə bağlı digər bir qaranlıq məqam onun Azərbaycan, yoxsa Osmanlı türkü olması ilə bağlıdır. Professor Qəzənfər Paşayev yazır ki, Əhdi Bağdadinin müasiri Ruhi Bağdadi boy-buxunlu, həddən artıq savadlı, iti zehinli olmuşdur və adı Osmandır. "Əslində Ruhinin "Osmanlı türkü" və ya "Azəri türkü" olması çox da önəmli deyil. Onun bir türk şairi olması, özü də məhz XVI əsrdə Bağdadda yaşayıb, türkcə yaratması faktı, bizcə, artıq kifayətdir" [6, s.51]. Əta Tərzibaşı Ruhi Bağdadinin Osmanlı tərzində şeirlər yazdığını və Mövləvi təriqətinə mənsub olduğunu xüsusi qeyd edir: "Mövləvi təriqətinə mənsub olan bu məşhur şair təsəvvüf şeirləri arasında dövrün bir neçə iraqlı şairlərinə işarə etdiyi incə və zərif mənzuməsində Əhdinin təzkirəsində adıçəkilən şairlərdən başqa Kəşvi, Tabi, Mehdi, Haki, Tərzi, Nəqdi, Elmi, Fəhmi, Nidayi kimi bir çox adlar üzərində də dayanmaqdadır" [14, s.129].

Əta Tərzibaşının İraq-Türkman ədəbiyyatına bəxş etdiyi ən böyük əsəri 13 cildlik "Kərkük şairləri"dir. "Tərzibaşı ömrünü verdiyi bu ölümsüz külliyatın hazırlığına gənclik illərindən başlamış, ilk cildini 39 yaşında olarkən yayımlaya bilmiş, 88 yaşına çatdıqda 13 cildi nəşr etdirməyə müvəffəq olmuşdur" [9, s.30]. Əta Tərzibaşının "Kərkük şairləri" və 3 cildlik "Ərbil şairləri" əsərləri əsasında "İraq-Türkman poeziya antologiyası" hazırlayan Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev kitabın "Ön söz"ündə yazır: "Əta Tərzibaşının XVI əsr ədəbi mühiti barədə tədqiqatlarını xüsusi qeyd etmək istərdim. Doğrudur, 13 cildlikdə araşdırıcı Füzuli yaradıcılığından ayrıca söz açmır. Müəllifin Füzuli haqqında çoxsaylı məqalələri və böyük həcmli "Füzuli haqqında yazılar" (Kərkük Vaqfı, İstanbul, 2016, 220 səh. Hazırlayan: Nicat Kövsəroğlu) adlı elmi tədqiqat əsəri vardır. Burada XVI-XVII əsrlər Bağdad ədəbi mühiti barədə zəngin material vardır" [5, s.24].

Əta Tərzibaşının 13 cilddən ibarət "Kərkük şairləri" kitabı həm də istifadə olunan məxəzlər baxımından da böyük maraq doğurur. Alimin əsərdə istifadə etdiyi ən qədim mənbə XVI əsrdə qələmə alınan və yuxarıda bir neçə dəfə adını çəkdiyimiz Əhdi Bağdadinin "Gülşəni-şüəra" təzkirəsidir. Bununla bağlı Əta bəy yazır: "Gülşəni-şüəra" və yaxud "Təzkirət Ərbab-issəfa" 1002-ci hicri ilində ölən bağdadlı Əhdinin əsəridir. Ümumi türk şairləri ilə tərcümələrini

və bəzi şeirlərini içinə almaqdadır. Yazma olan bu əsərin bir nüsxəsini İstanbul Universitetinin kitabxanasında gördüm" [10, s.9]. Alim bu təzkirədən XVI əsrdə yaşamış alimlərin bioqrafik məlumatlarını yazarkən istifadə etmişdir. İkinci istifadə olunan qaynaq isə "Cevad-ut-Tırad fi Marifeti şüərayi Bağdad" təzkirəsidir. Bu əsər türkcə yazılıb və sonrakı dövrlərdə ərəb dilinə tərcümə edilib. Tərcümənin əlyazması Mahmud Şükrü adlı şəxsin kitabxanasında tapılıb və Anastas Mari Karmeli tərəfindən üzü köçürülərək 1946-cı ildə Bağdadda nəşr edilib. Əta Tərzibaşının yazdığına görə, adıçəkilən təzkirənin müəllifi və tərcüməçisinin kim olduğu bilinmir. "Kərkük şairləri" kitabında istifadə olunan digər bir mənbə "Ravzat-uş-şüəra" adlı təzkirədir. Alim qeyd edir ki, Hicri Dədə ona bu təzkirənin müəllifinin Rəsul Havi olduğunu deyib. Ancaq bu dəqiq məlumat deyil. Rəsul Havi haqqında məlumatlara "Kərkük şairləri" kitabının III cildində rast gəlirik. Əta bəyin qeyd etdiyinə görə, Rəsul Havinin ən məşhur əsəri "Devhat-ül-Vüzəra" adlanır. "Ravzat-uş-şüəra" adlı təzkirənin olduğu söylənilsə də, indiyədək əlyazma tapılmamışdır. "Kərkük şairləri" kitabında yer alan şairlər haqqında məlumatlar əldə etmək üçün müəllifin ən çox istinad etdiyi məxəz Hicri Dədənin yazdığı "Riyaz-uş-şüəra" təzkirəsidir. Əta Tərzibaşı təzkirəni hələ müəllifi həyatda olduğu vaxt gördüyünü yazır. Əsər Hicri Dədə dünyasını dəyişdikdən sonra vəsiyyətinə uyğun olaraq digər yazıları ilə birgə oğlu Faiq Dədənin evində saxlanılır. Əta bəy 1963-cü ildə "Kərkük şairləri" kitabına yazdığı "Ön söz"də qeyd edir ki, əsəri hazırlayarkən Faiq Dədə atasının "Riyaz-uş-şüəra" təzkirəsini ona qısa müddətə verib [10, s.9]. 2013-cü ildə "Kərkük şairləri" kitabının ikinci nəşri üçün yazmış olduğu məqalədə isə Əta bəy həmin təzkirəni Faiq Dədədən uzun müddətlik istifadə üçün almağa müvəffəq olduğunu vurğulayıb. Əta Tərzibaşı "Kərkük şairləri" kitabının ikinci nəşri üçün yazdığı "Ön söz"də Şəhrəbanlı Əbdülqədir Hatibinin "Təzkirət-üş-şüəra" kitabından da istifadə etdiyini yazır. Bu kitab türk dilində yazılsa da, sonralar kərküklü yazıçı və tərcüməçi Fuad Həmdi tərəfindən ərəb dilinə tərcümə edilib və İraq Elmlər Akademiyasının xətti ilə nəşr etdirmişdir. Bütün bu təzkirələrdən əlavə Əta Tərzibaşı müasir dövrdə yazıb-yaratmış şairlər haqqında məlumat verərkən müxtəlif qəzet və jurnallardan da istifadə etmişdir.

"Kərkük şairləri" kitabında Əta Tərzibaşı XVI əsrdə yaşamış iki şairin adını çəkir: Hüşyar Dədə və Didar Dədə. Ümumiyyətlə, XVI əsrdə "Dədə" təxəllüsü daşıyan bir neçə şairlə qarşılaşırıq. Bu yüzillikdə Bağdad ədəbi mühitində yetişən Elmi Bağdadinin tam adı "Gülşəni-şüəra"da Molla Hüseyn Fərahşad kimi qeyd edilsə də, Əli Ənvarın "Simaxameyi-ədəb" adlı əsərində Elmi Dədə kimi göstərilir [7, s.43-44]. Elmi Bağdadidən başqa Kəlayi Bağdadinin də təxəllüsü Cahan Dədə olub. Əta Tərzibaşı "Kərkük şairləri" əsərində Mövləvi təriqətinin mürşidi olanların bu təxəllüsdən istifadə etdiyini yazır [12, s.10]. XVI əsrdə yaşamış Hüşyar və onun oğlu Didar da məhz bu səbəbdən "Dədə" təxəllüsü ilə yazıb yaratmışlar. Əta bəy hər iki şair haqqında faktları Hicri Dədənin "Riyaz-üş-şüəra" təzkirəsindən götürdüyünü qeyd edir. Müəllif Hüşyar Dədənin doğum ilini göstərməsə də, 1543-cü ildə vəfat etdiyini yazır. "Hüşyar Dədə kərküklü Həsən Dədənin oğludur. Musalla məhəlləsində doğulmuşdur. Çox bilikli, mütəsəvvüf bir şair olub Füzuli ilə çağdaş idi" [12, s.51]. Müəllif qeyd edir ki, Hüşyar Dədə hər dəfə Kərbəla ziyarətinə gedərkən Füzuli ilə də görüşmüşdür. Əta Tərzibaşı kərküklü şair Mehmet Sadıqdan Hüşyar Dədənin Füzulinin müəllimi olmasını və onu elm öyrənməyə təşviq etməsi rəvayətini eşitdiyini öz əsərində xüsusi qeyd edir. Mehmet Sadıqa da bu rəvayəti onun öz müəllimləri danışıb. Hətta Əta bəy həmin rəvayətə əsaslanaraq Füzulinin "Sor" rədifli qəzəlinin Hüşyar Dədənin "Eyləməz" qəzəlinə nəzirə olduğunu da yazır.

*"Xəbərsiz olma fəttan gözlərin cevrin çəkənlərdən,*
*Xəbərsiz məstlər əhvalını Hüşyar olandan sor".*
[12, s.53]

Müəllif kitabda Hüşyar Dədənin şeirlərindən iki qəzəlini oxuculara təqdim edir.

"Kərkük şairləri" kitabında yer alan XVI əsr şairlərindən ikincisi Didar Dədədir. Didar Dədə Hüşyar Dədənin oğludur və 1548-ci ildə vəfat edib. Əta Tərzibaşı bu şair haqqında məlumat-

ları da “Riyaz-üş-şüəra” təzkirəsindən əldə etmişdir. Didar Dədənin həyat və yaradıcılığı ilə bağlı geniş bilgi əldə etmək mümkün deyil. Əta bəy yazır ki, Didar Dədənin əlyazmalarda şeirləri var, lakin bu yazıların bir qismi köhnə nüsxələrin çürüməsi və ya itməsi səbəbindən günümüzə gəlib çatmamışdır [12, s.57]. Müəllif kitabda Didar Dədənin “Qamu” rədifli qəzəlini verməklə kifayətlənir.

## Nəticə / *Conclusion*

Əta Tərzibaşı ədəbiyyatşünaslıq fəaliyyətinin şah əsəri sayılan “Kərkük şairləri” əsərində XVI əsrdə Bağdad ədəbi mühitində yazıb-yaratmış başqa şairlərə yer verməmişdir. Müxtəlif yazılarında Füzuli başda olmaqla bu dövrün şair və ədiblərinin həyat və yaradıcılığını dərindən araşdıran alimin “Kərkük şairləri” külliyatında bu şairlərdən heç birinə yer verməməsi təəccüblüdür. Fikrimizcə, Əta bəy 13 cildlik əsərini yazarkən Kərkük və ona yaxın ərazilərdə doğulması sübut olunmuş türkman qələm adamlarına üstünlük verib. Bütün bunlara rəğmən onu qeyd etmək olar ki, XVI əsr Bağdad ədəbi mühiti Əta Tərzibaşının ədəbiyyatşünas alim kimi fəaliyyətində daim tədqiqat obyekti olmuş və bu mövzuda yazdığı həm irihəcmli əsərlərində, həm də elmi məqalələrində bir sıra qaranlıq məqamlara işıq salmağı bacarmışdır.

## Ədəbiyyat / *References*

1. Araslı H.M. Böyük Azərbaycan şairi Füzuli. Bakı: Azərbaycan uşaq və gənclər ədəbiyyatı nəşriyyatı, 1958.
2. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə, VIII cild. Bakı: Azərbaycan SSR Dövlət Nəşriyyatı, Poliqrafiya və kitab ticarəti işləri komitəsi, Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiyası, 1984.
3. Cavelidze E. Məhəmməd Füzuli: Həyatı, mühiti, yaradıcılığı (tərc. ed. Mirzə Məmmədoğlu). Bakı: Elm və təhsil, 2017.
4. Cavelidze E. Ruhi Bağdadi (tərc. ed. Mirzə Məmmədoğlu). Bakı: Elm və təhsil, 2018.
5. İraq-Türkman poeziya antologiyası. I cild (hazırl. Qəzənfər Paşayev). Bakı: Elm və təhsil, 2019.
6. Musabəyli A.Ş. Bağdadda yaranan Azərbaycan ədəbiyyatı və Ruhi Bağdadi divanı. 2 cilddə, I cild. Bakı: Elm və təhsil, 2011.
7. Səlimbəyli Ş.Ə. XVI əsr Azərbaycan ədəbiyyatının Bağdad ədəbi mühiti. Ruhi Bağdadinin həyat və yaradıcılığı. Bakı: Avropa, 2018.
8. Şakir Sabir Zabit. Türklərin İraqda qısa tarixi. Bakı: Nurlar, 2006.
9. Ata Terzibaşı. Fuzuli hakkında yazılar (hazırl. Necat Kevseroğlu). İstanbul: Şenyıldız Matbaaçılık, 2016.
10. Ata Terzibaşı. Kerkük şairleri. 13 ciltde, I ve II ciltler. İstanbul: Ötüken, 2013.
11. Ata Terzibaşı. Kerkük şairleri. 13 ciltde, III, IV ve V ciltler. İstanbul: Ötüken, 2013.
12. Ata Terzibaşı. Kerkük şairleri. 13 ciltde, VI, VII, VIII ve IX ciltler. İstanbul: Ötüken, 2013.
13. Ata Terzibaşı. Kerkük şairleri. 13 ciltde, X, XI, XII ve XIII ciltler. İstanbul: Ötüken, 2013.
14. Ata Terzibaşının makaleleri (edebi yazıları). (hazırl. Mustafa Ziya, Şəmsəddin Kuzeçi). Ankara: Vadi Grafik, 2018.
15. Mustafa İsen, Filiz Kılıç, İsmail Hakkı Aksayak. Eski türk edebiyatının kaynaklarından şair tezkireler. Eskişehir: Kitap hazırlama grupu, 2019.
16. Süleyman Solmaz. Gülşəni-i şüara. Denizli, T.C.Kültür ve Turizm Bakanlığı kütuphaneler ve yayımlar genel müdürlüğü, 2009.

## Багдадская литературная среда XVI века в научном творчестве Ата Тарзибаши

**Орхан Исаев**
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: orxan.qeriman@mail.ru

**Резюме.** Литературная среда Багдада XVI века занимает особое место в научной деятельности известного ученого Ата Тарзибаши. Жизнь и творчество Физули, Рухи Багдади, Ахди Багдади, Фазли и других поэтов подробно анализируются в научных статьях и книгах Ата-бея. Книга «Поэты Керкука», считающаяся одним из главных произведений ученого, также дает подробную информацию о поэтах, выросших в этот период. Ата Тарзибаши изучал произведения поэтов, писавших и творивших в литературной среде Багдада XVI века, в основе «Гульшани-шуара», которую написал Ахди Багдади. Исследования керкукского ученого о поэтах XVI века в Багдаде имеют особое значение с точки зрения изучения азербайджанской литературы того времени.
**Ключевые слова:** литература, произведения, литературная среда Багдада, классическая литература